**“Həmkarlar ittifaqları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 8-ci və 10-cu bəndlərini rəhbər tutaraq, “Hərbi vəziyyət haqqında” Azərbaycan Respublikasının 2017-ci il 14 fevral tarixli 530-VQ nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

“Həmkarlar ittifaqları haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1994, 17, maddə 235; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, 3, maddə 226, 5, maddə 379; 2001, 11, maddələr 676, 683; 2004, 6, maddə 397; 2005, 1, maddə 5, 8, maddə 684; 2006, 11, maddə 922; 2007, 5, maddə 437, 11, maddə 1049; 2010, 3, maddə 171; 2012, 7, maddə 672; 2013, 1, maddə 17; 2014, 10, maddə 1172; 2018, 1, maddə 6) 8-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

1. Adına “xitam verilməsi” sözlərindən sonra “və ya fəaliyyətinin dayandırılması” sözləri əlavə edilsin.

2. Aşağıdakı məzmunda üçüncü hissə əlavə edilsin:

“Hərbi vəziyyətin elan edilməsinə səbəb olmuş halların aradan qaldırılmasına və müəyyən edilmiş tədbirlərin həyata keçirilməsinə mane olan həmkarlar ittifaqları təşkilatlarının fəaliyyəti hərbi vəziyyət başa çatanadək dayandırıla bilər.”.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 1 may 2018-ci il
1100-VQD